# mr. Selfix®

## Sement əsaslı, özlüyündə yayılabilən (Self-Levelling) döşəmə materilalı

Məhsul kodu: 45.25.001




### Məhsul haqqında

**mr.Selfix®** sement əsaslı, özlüyündə yayılabilən (self-leveling), incə tətbiqlər üçün hazırlanmış, istifadəyə hazır döşəmə materialıdır.

### İstifadə sahəsi

- Daxili məkanlarda, mənzillərdə, keramika, mərmər, parket, xalça və PVC örtüklərinin tətbiqindən öncə hamar olamayan səthlərin düzəldilməsində
- Xəstəxanalarda
- Təhsil ocaqlarının binalarında və mehmanxanalarda
- Ticarət mərkəzlərində istifadə olunur

### Texniki göstəriciləri

| **Materialın tərkibi** | **Mineral dolğular, sintetik qatqılar, toz polimer ve xüsusi sement** |
|---|---|
| Rəngi | Boz |
| Təzyiqə müqaviməti<br>7 gün<br>28 gün | <br>23 N/mm$^2$<br>35 N/mm$^2$ |
| Qopma müqaviməti(28 gün) | 1,1 N/mm$^2$ |
| Tətbiq ediləcək səthin istiliyi | $+5^{0}$C $+25^{0}$C |
| İstifadə müddəti | ~ 35 dəqiqə |
| İstifadəyə açma müddəti | 24 saat |

Yuxarıdakı qiymətlər $+23^{0}$C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Sadəcə su ilə qarışdırılır və asan tətbiq olunur
- Özü özlüyündə yayılır

### İstifadə təlimatı

Səthin hazırlanması;

Tətbiq sahəsinin möhkəm, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth, yapışmanı zəiflədəcək bütün pas, qatı sürtgü yağı və parafin qalıqlarından təmizlənməli və səthdə artıq qırıntılar olmamalı və səth nəmə doymuş olmalıdır. Donmuş və ya 24 saat ərzində donmaq təhlükəsi olan sahələrdə tətbiq olunmamalıdır. 5-20 mm dərinliyində olan boşluqlar iki gün əvvəlcədən mr.Tamir® ilə təmir edilməlidir. Tətbiq olunacaq səthin istiliyi $+25^{0}$C-dən çoxdursa, səth nəmləndirilməlidir. mr.Selfix® -in istifadə zamanı səthin əmiciliyini azaltmaq və hava qabarcıqlarını azaltmak üçün səth mr.Astar® ilə iki qat astarlanmalıdır.

### Hazırlanması

İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr. Selfix® yavaş-yavaş əlavə edilərək 400-600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, düyünlər həll olunana qədər qarışdırılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

### Qarışdırma nisbəti

| | |
|---|---|
| 1 kq toz üçün | ~ 0.24 litr su |
| 25 kq toz üçün | ~ 6litr su |

### Sərfiyyat

1mm qalınlıq əldə etmək üçün 1, 75 kq/m$^2$ toz

### Alətlərin təmizlənməsi

İstifadə edilən alət və ləvazimatlar su ilə təmizlənməlidir. mr. Selfix® bərkidikdən sonra səthdən ancaq mexaniki şəkildə təmizlənə bilər.

### Saxlama şərtləri

Açılmamış orijinal qablaşdırmada, sərin və quru yerdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 25 kq ±2%**